UOT 371

***Nüşabə Ələskər qızı Səfərova***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Bakı Dövlət Universiteti*

# ŞİFAHİ XALQ NÜMUNƏLƏRİNDƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN YERİ

***Нушаба Алескер гызы Сафарова***
*докторант по программе доктора философии*
*Бакинский Государственный Университет*

# МЕСТО НАЦИОНАЛЬНО-НРАВСТВЕННЫХ ЦЕННОСТЕЙ В УСТНОМ ФОЛЬКЛОРЕ

***Nushaba Alaskar Safarova***
*doctorial student in the program of doctor of philosophy*
*Baku State University*

# THE PLACE OF NATIONAL AND MORAL VALUES IN ORAL FOLKLORE

**Xülasə.** Məktəb illərində, ilk növbədə, ibtidai sinif şagirdləri mənəvi tərbiyə ilə əhatə olunmalıdırlar. Bu məktəbin bütün ahəngində özünü göstərməlidir. Kiçik yaşlı məktəbliləri milli ruhda tərbiyə etmək üçün, ilk növbədə onlara milli-mənəvi dəyərlərimizi, ana dilimizi, milli adət-ənənələrimizi və s. dərindən mənimsətməliyik.
***Açar sözlər:*** *xalq nümunələri, atalar sözləri, kiçik məktəblilər, dostluq, vətənpərvərlik, milli, dəyər, mənəviyyat*

**Резюме.** Духовным воспитанием младших школьников, в первую очередь, должны заниматься в школьные годы. Это должно проявляться во всей гармонии школы. Чтобы воспитать юных школьников в национальном духе, нужно, прежде всего, научить их нашим национальным и духовным ценностям, родному языку, национальным традициям. Мы должны им помочь овладеть этими знаниями более широко и осмысленно.
***Ключевые слова***: *народные образцы, пословицы, младшие школьники, дружба, патриотизм, национальный, ценности, нравственность*

**Summary.** Spiritual education, first of all, for younger students should be engaged in school years. This should be manifested in all the harmony of the school. To educate young schoolchildren in the national spirit, it is necessary, first of all, to teach them our national and spiritual values, native language, national traditions and so on, we must master this knowledge very deeply.
***Keywords***: *folk examples, proverbs, little schoolchildren, friendship, patriotism, nationality, value, morality*

Respublikamız müstəqillik qazandıqdan sonra təhsil və tərbiyənin məzmununda müəyyən dəyişikliklər aparmaq lazım gəldi. Özümüz də istəmədən zorla müharibəyə cəlb olunmağımız gənc nəslin mənəvi tərbiyəsinə də yeni nəzərlə baxmağı tələb edir. Təbii ki, bütün bunlar sosial mühitin şəxsiyyətə təsiri izsiz-soraqsız ötüşmür. Bu, ilk növbədə, mənəvi tərbiyə sahəsində işlərin səmərəli surətdə aparılması işini çətinləşdirir. Bu çətinliklərə baxmayaraq ölkəmiz və xalqımız bütün güc və səylərini səfərbər edərək gələcəyə nikbin baxır, bütün sahələrdə uğurlu addımlar atır, inkişafımızı, mənfi təsirləri zəiflətmək üçün gənc nəslin təlim və tərbiyəsinə təsirini daha da artırır. Bu gün ölkəmizdə saf əqidəli, zəngin mənəviyyatlı, öz soykökünə, Azərbaycan xalqının azadlıq və demokratik ənənələrinə bağlı olan, xalqın mənəvi, mahiyyətcə,

milli keyfiyyətcə humanist və mədəni sərvətlərinə möhkəm və dərindən yiyələnən, onu qoruyan, daha da inkişaf etdirən sağlam nəslin yetişdirilməsinə ehtiyac vardır.

Xalqımızın tarixən yaratdığı, qoruyub saxladığı milli-mənəvi dəyərlər əsasında gənc nəslə yoldaşlıq və dostluq, şərəf və ləyaqət, müasirlik və dönməzlik, qəhrəmanlıq, səbirlilik və dözümlülük, vicdan, namus, qeyrət, insanpərvərlik, ədalətlilik, saflıq və təvazökarlıq, yüksək əxlaqilik, vətənpərvərlik, vətən məhəbbət, yaxşılıq və xeyirxahlıq, böyüyə, valideynə, qadına hörmət, sözübütövlük, düzlük və doğruçuluq, qayğıkeşlik, azərbaycançılıq və dövlətçilik, təbiətə sevgi və məhəbbət və s. keyfiyyətlər aşılanır.

Dərsliklərimizdə verilimiş mətnlərin məzmunu ibtidai sinif şagirdlərinə: "balığı tut at dəryaya balıq bilməsə də xaliq bilər", "yaxşılığa yaxşılıq nər kişinin işinin işidir", "Namusu itə atıblar oda yeməyib", "Vicdan insanın hakimidir", "Səbir et, hər şeyə nail olarsan" və s. fikirləri aşılamağa əsas verir. Bu keyfiyyətləri uşaqlara lap kiçik yaşlarından aşılamaq daha səmərəli olur. İstər ailə, istərsə də məktəbdə uşaqlar mənəvi tərbiyə ilə əhatə olunmuşdurlar.

Azərbaycan dili təlimində verilmiş bədii mətnlərdə xalqımızın tarixi dövr ərzində yaşadığı həyat tərzini, adət-ənənələrini, milli irsini, milli-mədəni abidələrini, ulularımızın, müdrik düha sahiblərinin hikmət dolu kəlamlarını, öyüd və nəsihətlərini ən müqəddəs dəyər kimi özündə, məzmununda birləşdirərək gənc nəslin mənəviyyatında qiymətli örnək kimi çıxış etmişdir.

Uşaqların mənəvi tərbiyəsində Azərbaycan dilinin imkanlarını xüsusi qeyd etmək yerinə düşər. Azərbaycan dili dərslərində kiçikyaşlı məktəblilərin mənəvi-əxlaqi tərbiyəsi ilə məşğul olmaq üçün müəllimin geniş imkanları vardır. Müəllim Azərbaycan dili dərslərində olan bədii mətnlər vasitəsilə uşaqların davranışı haqqında (Ailə və məktəb bölməsində), məmləkətimizin şəhərləri, yurdumuzun təbiət gözəllikləri, dağları, çayları, gölləri (Ana təbiət bölməsi), kainatda baş verən təbii hadisələrin sirri (Kainatın sirləri bölməsi), nəcib insanları (Əxlaqi dəyərlər bölməsi) barədə ətraflı söhbət açmalıdır. Müəllimin bədii mətnlərin oxusu zamanı xalqımızın sülhsevərliyi, vətənpərvərliyi, comərdliyi, mübarizliyi, dövlətçiliyi, şərəf, ləyaqəti, namus və vicdan məsələləri, dostluq və yoldaşlıq, sədaqətlilik, ədalətlilik və s. kimi milli-mənəvi dəyərlərin mahiyyətini şagirdlərə aşılanması çox vacibdir. kiçikyaşlı məktəblilərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi işini asanlaşdırmaq məqsədilə "Azərbaycan dili" dərsliklərinə müxtəlif bədii mətnlər - şer, hekayə, rəvayət, nağıllar, dastanlardan parçalar, təmsillər, atalar sözləri və məsəllər, tapmacalar daxil edilmişdir. Həmin materiallar şagirdlərin şüuruna və hisslərinə təsir göstərmək, mənəvi mövzuda söhbətlər aparmaq üçün əlverişli imkan yaradır. Bu cəhətdən məktəblərdə, xüsusən ibtidai siniflərdə Azərbaycan dili dərslərinin imkanlarından səmərəli istifadə edilməlidir.

Azərbaycan dili dərslərində verilmiş bədii mətnlər uşaqların ruhuna yaxın olmağı, onlarda yüksək estetik zövq, vətənpərvərlik, Vətənə bağlılıq, torpağa bağlılıq, Vətən sevgisi, milli iftixar, humanizm, milli qəhrəmanlıq, ədalətlilik, dostluq və yoldaşlıq, şərəf, ləyaqət, vicdan, namus, xeyirxahlıq, böyüyə hörmət, qayğı və ehtiram və s. nəcib hisslər tərbiyə edir. Bu bədii mətnlərdən istifadə edərkən hər bir müəllim uşaq qəlbinə həyat və təbiətin həqiqətləri ilə qanad verilməlidir. Çünki o, uşaq olsa da insandır. Onun sadə görünən oynaq, daim xoşbəxt və azad təbiətində insanlığın bütün keyfiyyətləri mövcuddur. Uşaq hər şeydə bir nəğmə, bir sevinc, hər kəsdə nəvaziş və hörmət görür. Onun mənəvi aləmi ən nəcib, xeyirxah hisslər yuvasıdır. S. Vurğunun təbirincə desək "Uşaq qəlbini tərbiyə edərək, o qəlbə həyat və qolqanad verilməlidir".

Azərbaycan dili təlimindəki bədii mətnlər «Nağıllar aləmi» bölməsində nəzərdə tutulan milli-mənəvi dəyərlər baxımından daha maraqlıdır. Uşaq nağılları, əfsanələr, rəvayətlər, dastanlar və digər növ folklor nümunələri uşaqların milli-mənəvi dəyərlər əsasında tərbiyəsində mühüm rol oynayır. Xalq yaradıcılığının məhsulu olan nağıllar, dastanlardan verilmiş parçalar uşaqların başa düşəcəkləri şəkildə, həm də maraqlı, cəlbedici süjet və obrazlar vasitəsilə təqdim olunduqda uşaq qəlbinə, əxlaqına və təxəyyülünə güclü təsir göstərir. "Bədii söz uşaq qəlbini bahar kimi şəfəqləndirməyi bacarığı kimi, onu zülmətlərdən, tufan və fırtınalardan keçirərək mübarizəyə, inkişaf və tərəqqiyə hazırlamalıdır" (S. Vurğun).

Azərbaycan dili təlimində mənəvi dəyərlərin məzmununda şərəf, ləyaqət, vicdan, namus, etibarlılıq, ədalətlilik, əməksevərlik, sadəlik, təvazökarlıq və yaşlılara hörmət, qayğı, ehtiram və s. mühüm yer tutur. Bu qəbildən olan mənəvi dəyərlər uşaqların şəxsiyyət kimi formalaşmasının, cəmiyyətdə hörmətinin artmasının dərin mənasını aydınlaşdırır, uşaqlarda yaşlılara yüksək hörmət hissi tərbiyə edir. Məsələn: "Böyüyə hörmət həmişə vacibdir", "Hamıya hörmət et ki, hörmətin olsun", "Böyüksüz ev viran qalar», "Böyü sözünə baxmayan böyürə-böyürə qalar", "Allahsız yerdə otur, böyüksüz yerdə oturma", "Paltarını təzə ikən, namusunu gənc ikən qoru", "Şərəflə, ləyaqətlə yaşamaq hər bir insanın insanlıq borcudur", "Vicdan daxildən gələn ikinci səsdir" və s. müdrik xalq kəlamlarının mənası bədii mətnlərdə müxtəlif yollarla əks etdirilir və uşaqlar həmin nümunələrlə tanış olduqda elə o ruhda da böyüyürlər.

Vətənə bağlı bədii mətnlər, uşaqlara belə bir həqiqəti bildirir ki, bütünlükdə insanın ləyaqəti, onun nə dərəcədə Vətənə bağlılığı, Vətən sevgisi, bir sözlə, vətənpərvər olması ilə ölçülür, uşağın doğma el-obası, ana Vətəni olmasa o tam xoşbəxt ola bilməz, qürbət Vətən olmaz, Vətəndən əziz, müqəddəs bir şey yoxdur. Bayatılarımızda deyildiyi kimi:

"Aşıq vətən yaxşıdır,
Köynək kətan yaxşıdır,
Qürbət cənnət olsa da,
Yenə Vətən yaxşıdır" və ya

"Vətənə gəldim, imana gəldim", "Getdim, gəzdim dünyanı, cənnət bildim buranı", "Gəzməyə də, ölməyə də Vətən yaxşı". Vətənpərvərlik milli soykökünə bağlılıqdır, ən yüksək mənəvi dəyərdir». Çünki soykökü milli kökdür, mənəvi kökdür. İnsanın milli mənliyi həm də onun soykökünə necə bağlılığı ilə ölçülür.

Ulu öndər Heydər Əliyevə görə, "Bizim xalqımızın milli-mənəvi ənənələri, mədəni-milli dəyərlər həmişə əsrlər boyu xalqımıza yüksək mənəviyyat ruhunda tərbiyə edib, böyüdüb yaradıblar. Biz fəxr edə bilərik ki, milli, dini, mənəvi ənənələrimiz, dəyərlərimiz həmişə ən yüksək mənəviyyatı əks etdirir. Hər bir gənc öz kökünə sadiq olmalıdır. Bizim öz kökümüz çox sağlam kökdür və biz onunla fəxr edə bilərik". Milli mənəvi dəyərlərin məzmununda mərdlik və qəhrəmanlıq tərbiyəsi mühüm yer tutur. Bədii mətnlərdə mərdlik, qəhrəmanlıq motivləri uşaqlar onların yaşına uyğun şəkildə anladılır ki, "Mərd adam mərdliyini sözdə deyil, işdə sübut edir", «Mərd meydanda məlum olar", "Mərd ölümü şərəfsiz yaşamaqdan üstün tutar", "Mərdlik insanın mənəvi gücünü və möhkəmliyini ifadə edə ən müqəddəs milli dəyərdir. Bu anlayışda igidlik, cürətlilik, təkidlilik, rəşadət, dözüm kimi bir-birinə yaxın sözlərin məna çalarları açılır. Mərdlik, qorxmazlıq, qorxuya nifrət, hər hansı təhlükəyə hazır olmaq əlamətləri mövcuddur. Bədii mətnlərdə deyilən fikirlər belə bir danılmaz həqiqəti təsdiq edir ki, hər bir xalq, millət özünün bütün tarixi inkişaf mərhələsində gənc nəslin mərdlik və qəhrəmanlıq ruhunda tərbiyə edilib yetişdirilməsinə xüsusi əhəmiyyət vermişdir.

İnsanpərvərlik xeyirxahlıq dəyəri ilə üzvi surətdə bağlıdır. Müasir dövrdə xeyirxahlıq tərbiyəsi rahatlığın təmini baxımından böyük aktuallıq kəsb edir. Cəmiyyətimizdə humanizm, sosial münasibətlərin normal olmasını təmin etmədən şəxsiyyətin rahatlığı və ahəngdar inkişafı qeyri-mümkündür. Xeyirxahlıq milli-mənəvi dəyər kimi bilavasitə ismətlilik, ədəb-ərkan həyalılıq hissi ilə sıx əlaqəlidir. Xeyirxah insan xeyirxahlıq edərkən heç vaxt əvəzini ödəmək hissi ilə yaşamaz, etdiyi yaxşılığı üzə vurmaz, başa qaxmaz.

Xalq arasında, "Varını verən utanmaz" prinsipinə o, təbii hal kimi baxar, yaxşılıq etdiyi adamın heysiyyatına toxunmaz, yaxşılığı elə ədəb-ərkanla, həya və nəzakətlə edər ki, əks tərəf bundan inciməz, peşmançılıq hissi keçirməz. Xalqımızın milli-mənəvi dəyərləri sırasında dostluq, sədaqətlilik və etibarlılıq dəyərlərinin xüsusi yeri vardı. I-IV sinif Azərbaycan dili təlimində bu məsələyə dair kifayət qədər bədii mətnlər verilmişdir.

Dostluq insan münasibətlərinin ən kövrək və ülvi hissələrindəndir. Əsil dostlun insanlar arasında heç bir təmənnaya əsaslanmayan təmiz və saf münasibətdir. Dostluq xalq kəlamlarında, nağıllarda, rəvayət və dastanlarda, atalar sözü və məsəllərdə, aqillərin hikmətlərində möhkəm yer tapmışdır. Bədii mətnlərdə bildirilir ki, "İnsanlar bütün hallarda dosta möhtacdır", "Dost dosta arxa olar", "Dost dostu dar gündə sınayar", "Dost yolunda boran olar, qar olar", "Ən böyük dövlət dostluqdur". Dostluğun ən mühüm şərti

dostların bir-birinə sədaqətli olmalarıdır: “Dost sirrini dosta deyər”, “Dost arası tən gərək, tən olmasa gen gərək” və s.

Nəticə olaraq deyə bilərik ki, Azərbaycan xalqının milli-mənəvi dəyərləri Azərbaycan dili təlimində bədii mətnlərdə xüsusi yer tutur. Şərəf, ləyaqət, vicdan, namus, vəfalılıq, xeyirxahlıq, böyüyə hörmət, borc, insaf, ədalətlilik, qeyrət, abır-həya, mərdlik və qəhrəmanlıq, halallıq, sadəlik və təvazökarlıq, səmimiyyət, igidlik, mübarizlik, dostluq, doğruluq və düzlük və s. əxlaqi dəyərlər xalqımızın, milli-mənəvi sərvəti kimi zaman-zaman yaratdığı və mənəviyyatı, ictimai şüurun bir forması kimi nəsillərdən nəsillərə ötürdüyü mənəvi sərvətidir. Bu mənəvi sərvəti, mənəvi dəyərləri dərk etmək və kiçikyaşlı məktəblilərin tərbiyə sistemində həyata keçirməklə onların inkişafını milli zəmində qura bilərik. Kiçikyaşlı məktəblilərin başqalarına, əməyə, Vətənə, xalqa, millətə, cəmiyyətə, ana təbiətə, ana dilinə, dininə, bütünlükdə bəşəriyyətə münasibəti həmişə milli dəyərlər əsasında tərbiyə edilməsindən asılı olmuşdur. Çünki milli-mənəvi dəyərlər, bilavasitə tərbiyə prosesində aşılanıb formalaşır.

**Problemin aktuallığı**. Şifahi xalq nümunələrində milli-mənəvi dəyərlər yerinin müəyyənləşdirilməsi aktuallığı ilə seçilir.

**Problemin yeniliyi**. Məqalədə şifahi xalq nümunələrində milli-mənəvi dəyərlər yeri diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılardan ötrü faydalı olacaqdır.

**Ədəbiyyat**

1. Abbasov, A.N. Pedaqogika / A.N. Abbasov. -Bakı: Mütərcim, -2015.

2. Qasımova, L.N. Pedaqogika / L.N. Qasımova, R.M. Mahmudova. -Bakı, -2021.

3. Qasımova, LN. Ədəbiyyatın tədrisi prosesində şagirdlərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi / L.N. Qasımova. - Bakı, -2003.

4. Qasımova L.N. Məktəblilərin milli mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən / L.N. Qasımova. - Bakı, 2004.

**E-mail: nurcaxan@mail.ru**

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **L.N. Qasımova,**
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**

**Redaksiyaya daxil olub:**10.06.2021